Milli musiqimizin baniləri bütün dövrlərdə muğamın keşiyində ayıq-sayıq dayanıblar. Muğam, segah, xalq nəğmələri, həmçinin bəstəkar mahnılarının sevimli təbliğatçıları barmaqla sayılmayıb. Ölkəmizin bütün bölgələrində milli musiqimizə məhəbbətin kökləri çox qədimlərə gedib çıxır. Qarabağ muğam məktəbinin yetirmələri yalnız "Qarabağ şikəstəsi"ni deyil, "Şirvan şikəstəsi", "Şirvan gözəlləməsi", "Şəşəngi"ləri də eyni ruhla ifa ediblər.



# Həzin səsin dalğaları

## Gözəlliyin və məhəbbətin rəmzi muğam, segah və xalq mahnıları İslam Rzayevin ifasında nəinki Qarabağda, "dünyanın o başında" da qanad çalırdı, "Qatar" təsnifi kimi...

Azərbaycan muğam məktəbinin sevilən, yaddaqalan, unudulması mümkün olmayan, qızıl səsli ustadlarından biri də sənətsevərlərin dilinin əzbəri, bənzərsiz xanəndə, mahir pedaqoq, eləcə də bacarıqlı ansambl rəhbəri kimi tanınmış Xalq artisti İslam Rzayev olub. Milli musiqi sənətimizi özünəməxsusluğu ilə zənginləşdirən, klassik muğam ifaçılarına xas keyfiyyətləri sənətkarlıq ampulasında birləşdirən ustad yalnız muğam ifa etməyib. Onun oxuduğu ariyalar, ayrı-ayrı filmlərdə səslənən nəğmələri də həmişəyaşar müsiqi xəzinəmizə daxil olan əvəzsiz incilərdəndir. Ustadın 200-ə yaxın muğam, təsnif, xalq və bəstəkar mahnıları qızıl fondumuzu zənginləşdirir.

1934-cü ildə Füzuli rayonunda anadan olan, Qarabağ muğam məktəbinin yetirməsi kimi tanınan İslam Rzayevin ilk ifasını Seyid Şuşinski dinləyib. Bundan sonra ustad onun A.Zeynallı adına Orta İxtisas Musiqi məktəbində oxumasını məsləhət bilib, hətta təkid edib. Ona görə gənc İslam qəbul üçün sənədlərini həmin məktəbin xanəndəlik şöbəsinə verib. Peşəkar musiqi təhsilinə orada yiyələnib. S.Şuşinskinin sinfində muğam dəstgahlarını mükəmməl öyrənib, Zülfü Adıgözəlovdan və Həqiqət Rzayevadan muğam dərslərini alıb, sənətini təkmilləşdirib. Səsi və özünəməxsus ifası Seyid Şuşinski, Fikrət Əmirov, Süleyman Ələsgərov tərəfindən çox bəyənilib, taleyi üzünə gülən İslamın sənət yolu bununla açılıb. Məktəbi uğurla başa vuran İslam Rzayev Azərbaycan Dövlət Filarmoniyasına işə qəbul olunub. O, burada "Azərbaycan təranələri" ansamblının müşayiəti ilə "Bayatı-Şiraz", "Bayatı-Kürd", "Çahargah", "Rast", "Mahur-Hindi" kimi ifası çətin olan, məlahətli səs, səriştə tələb edən, mürəkkəb quruluşlu müğamları özünəməxsus şəkildə ifa edib. Sonralar, 1976-cı ildə Azərbaycan Dövlət İncəsənət İnstitutunu bitirib.

Azərbaycan Dövlət Filarmoniyasında ilk çıxışı 1956-cı ildə olan İslam Rzayevin ifasını dinləyən bəstəkar-dirijor, mayestro Niyazi xatirələrinin birində onun haqqında danışarkən deyib: "...Muğamlardan "Bayatı-Şiraz"ı, "Çahargah"ı, "Rast"ı yerli-yataqlı oxudu, səsi məlahətlidir. Ümidverici gələcəyi var..."

Ölməz sənətkar, əvəzolunmaz ustad xanəndə haqqında fikir söyləyən yalnız Seyid Şuşinski ilə mayestro Niyazi deyildi. Mahnıları ilə könülləri fəth etmiş Xalq artisti, bəstəkar Səid Rüstəmovun da İslam Rzayevin ifaçılığı ilə bağlı fikirləri maraqlıdır: "...Onun repertuarında ləngərli muğamlar, ifası çətin olan lirik bəstəkar mahnıları özünə yer tapıb... Müğənninin bu yaradıcılıq əzmi, sözsüz ki, alqışa layiqdir".

Ötən əsrin ortalarında musiqi aləminə gələn İslam Rzayev Arif Məlikovun, Xəlil Cəfərovun, Hacı Xanməmmədovun, Ramiz Mirişlinin, Adil Bəbirovun lirik mahnıları ilə repertuarını zənginləşdirib. İslam yalnız muğam ustası kimi yox, həm də lirik mahnılar, romanslar, simfoniya, xor, kantata üçün yazılmış mürəkkəb quruluşlu, xüsusi professional ifaçılıq qabiliyyəti tələb edən müğənni kimi də tanınırdı. Cahangir Cahangirovun "Nəsimi", "Aşıq Alı " və s. kantatalarında solo partiyaları uğurla ifa etmişdir.

Mahir pedaqoq kimi də yaddaşlarda qalan ustadın dərs dediyi ixtisaslaşdırılmış xüsusi musiqi məktəbində, Azərbaycan Dövlət Musiqi Akademiyasında neçə-neçə tələbəsi ondan muğam və vokal ifaçılığı sənətini öyrənib. O, həm də bacarıqlı ansambl rəhbəri kimi tanınıb və sevilib.

İslam Rzayev eyni zamanda Azərbaycan muğam sənətini yaşadan və təbliğ edən sənətkar olub. Bakıda ilk peşəkar Dövlət Muğam Teatrının yaradılması da ölməz sənətkarın adı ilə bağlıdır. Həyatının sonunadək Müğam Teatrının bədii rəhbəri vəzifəsində çalışıb. O, bir sıra mahnılar da bəstələmiş, onlardan "Gəl inad etmə", "Dağlar başı", "Almadərən" mahnıları geniş yayılmışdır.

Əvəzsiz səsi, zəngulələi boğazı və yorulmayan nəfəsi ilə milli musiqimizi, muğam və təsniflərimizi, xalq və bəstəkar mahnılarını sevərək ifa edən İslam Rzayev mədəniyyət və incəsənətimizdəki xidmətlərinə görə 1967-ci ildə Əməkdar, 1989-cu ildə Xalq artisti fəxri adlarına, 2007-ci ildə isə "Şöhrət" ordeninə layiq görülüb.

Xalq artisti özünün yetirmələri haqqında layiq olduqları fikirləri bildirib. Xanəndə Ruzə İbişova haqqında söylədikləri də buna misaldır: "Ruzə xanım Musiqi Akademiyasında mənim ən savadlı tələbələrimdən biri olub və bütün muğamları, hətta yaddan çıxmışları belə mənimsəyərək öyrənib. Bir dəfə eşitdim ki, Ruzə S.Rüstəmov adına xalq çalğı alətləri orkestrində "Çahargah" muğam dəstgahlarını oxuyur, buna bir müəllim kimi çox sevindim. Onu gözəl gələcək gözləyir. Ruzə buna layiqdir".

Bəli, ustad istedadlıların tanınmasında bir müəllim-pedaqoq kimi bilik və bacarığını əsirgəməyib. Ömür isə o zaman əbədi olur ki, sevilirsən, şəxsiyyətin və sənətinlə yaddaşlara yazılırsan. İslam Rzayev də əbədi ömür qazanan sənətkarlarımızdan biridir. 2008-ci ildə ömrünün 73-cü fəslində əbədiyyətə qovuşan İslam Rzayev sənətinin tarixində və sənətsevərlərin yaddaşında yaşayır və yaşayacaq.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

Azərbaycan.- 2020.- 23 avqust.- S.5.